ədalət.- 2021.- 4 sentyabr.- S.6.



# GƏNCƏBASARIN ƏLİBALA HACIZADƏSİ

Qərib MEHDİ

(təəssürat)

**Tanınmış yazıçı-şair İmam Cəmillinin "Təzadlı dünyanın təzadlı adamı" romanı (Bakı, "Ecoprint" nəşriyyatı, 2021) mənə təqdim olunanda İkinci Qarabağ müharibəsi ilə bağlı yazılarımı - hekayə və esselərimi yenicə tamamlamışdım. Ədəbiyyat cəbhə mövzusunu önə çıxarmışdı. Dünyanın siyasi mənzərəsi bizə dost olan Əfqanıstanda taliblərin hakimiyyətə gəlməsilə daha da mürəkkəbləşmişdi.**

Oxucularımız Əfqanıstanı mərhum yazıçımız Əlibala Hacızadənin silsilə romanları ilə tanıyır. Sovetləri təmsil edən tərcüməçi Əlibala müşahidələrini qələmə almaqla məşhurlaşmışdır.

***İmam da o dönəmdə Əfqanıstanda olmuşdu. Onun işi Əlibalanınkından daha çətin idi. O, işğalçı Sovet qoşunları tərkibində Əfqanıstana aparılmışdı. Hər an ölüm və ya əsir düşmək təhlükəsi ilə üz-üzə idi. Şükürlər olsun ki, qanlı-qadalı hadisələrin içindən salamat çıxmış İmam vətənə qayıda bilmişdi. Əlibala Hacızadədən sonra Əfqanıstan mövzusunda ədəbiyyatımızda bir boşluq yaranmışdı. İmam Cəmilli uzun illərdən sonra ortaya qoyduğu bu romanı ilə yaranmış boşluğu kifayət qədər doldurmuş oldu.***

Cəmilli iki müharibənin - Əfqanıstan və Birinci Qarabağ müharibəsinin veteranıdır. Onun Qarabağ savaşında erməni işğalçılarının törətdiyi rəzalətlər barədə müxtəlif vaxtlarda müxtəlif qiymətli yazılarını oxumuşuq. Bu, proses indi də davam edir. Bu çox yaxşıdır. Müharibəni iştirakçısı olandan kim daha real təsvir edə bilər?! Gənclərimizin vətənpərvərlik tərbiyəsində belə müəlliflərin qələmi effektli rol oynayır.

AYB və AJB-nin üzvü olan, çoxsaylı kitablar ərsəyə gətirən, ədəbi fəaliyyətinə görə Prezident mükafatına layiq görülən yazıçının nəticə etibarı ilə roman janrına müraciət etməsi təbii sayılmalıdır. Özündə nələri ehtiva edir bu roman?

İrəlicədən deyək ki, roman avtobioqrafik janrın tələblərinə daha uyğun yazılıb. Əsərin qəhrəmanı Vüqarı oxucu tərəddüd etmədən elə İmam Cəmilli hesab edə bilər. Əslində, roman iki hissədən ibarətdir. Birinci hissədə qəhrəmanı hərbi xidmətə çağırıldığı dövrə qədər baş verən lirik-emosional hadisələrin fonunda təsvir olunur.

Vüqar atası Müslüm, anası Zöhrə olan sadə bir kəndli ailəsində dünyaya göz açıb. Ailədə daha iki bacısı da var. Valideynlər yeganə oğlan uşağı olan Vüqarı təhsilli görmək istəyirlər. Bu məqsədlə Vüqar elektro-texnik ixtisası üzrə texnikumu seçir.

Yeni məkanda yeni hadisələr baş verir. Gənc erkən yaşlarından eşq "bəlasına" mübtəla olur. Belə ki, tələbə yoldaşı Xalidə ilə saf ürəklə sevişirlər. Sonra sınaqlar dövrü başlayır. Daha bir tələbə yoldaşı Zeynal ona rəqib çıxır. Ancaq Xalidə ona biganədir. Birtərəfli sevgiyə baxmayaraq Zeynal inadından dönmür, Vüqarı qorxutmaq üçün "duelə" çağırır. Vüqar çəkinmədən "duel" təklifini qəbul edir və rəqibinin dərsini yaxşıca verir. Bundan sonra Zeynal avtomobil qəzası nəticəsində xəstəxanaya düşür. Vüqar rəqibinə qarşı humanist addımlar atır. Bundan sonra Zeynal peşimançılıq hissi keçirir və sonadək Vüqarla dost olur.

İlk sevgi həyatı gənc ailəyə xoşbəxtlik gətirmir. İllər keçsə də, onlar övlad üzünə həsrət qalırlar. Səbəb Xalidədən gəlir. Onlar ayrılmaq məcburiyyətində qalırlar.

***Bir azdan Vüqarın hərbi xidmət yaşı çatır. Ailədə tək oğlan uşağı olmasına baxmayaraq onu ordu sıralarına qatırlar. Bu o dönəm idi ki, işğalçılıq mahiyyətindən əl çəkməyən Sovet imperiyası özünün siyasi maraqlarına görə ramolunmaz Əfqanıstana (1979-1989) soxulmuşdu. Qırmızı imperiya rəhbərlərini tez-tez dəyişsə də, məqsədinə nail ola bilmirdi. Nəticədə hər iki tərəfdən yüz minlərlə döyüşçü həlak olmuşdu. Hərbi sursat cəhətdən sovetlər Əfqanıstan mücahidlərindən üstün olsa da, bu üstünlüyü qələbəyə çevirə bilmirdilər. Bunun sirri ondaydı ki, əfqanlar öz vətənlərinin azadlığı uğrunda çarpışırdılar.***

Sovet hərbi elitasında isə həmrəylik yox idi. Əfqanıstan dünyada narkotik yetişdirən, müxtəlif vasitələrlə onu gizli bazarlara daşıyan ölkə kimi tanınırdı. Bu torpağın coğrafi mövqeyi, yeraltı sərvətləri dünyanı təsirində saxlayan qüdrətli ölkələri daha çox maraqladırırdı. Strateji maraqların toqquşmasında sovetlər rəqiblərini qabaqlamaq istəyirdi. Qırmızı imperiyanın arzusu çin olmurdu. Bu işdə ordunun yuxarı ranqında yer alan




müəyyən vəzifəlilərin şəxsi varlanmaq maraqları işğalçı ordunu içdən sarsıdırdı. Bu halı yazıçı iki sovet zabitinin - Vitalinin və Kaplanın timsalında inandırıcı faktlarla oxuculara çatdırır. Bu faktlar hansı süni əməliyyatlara bağlıdır? Deyək. Oxucu onda görəcək ki, insan taleləri uğrunda necə alver gedir.

***Sovetlər tərəfindən döyüşlərdə çox sayda ölənlər və əsir düşənlər olurdu. Bir qayda olaraq əsir düşənlər də ölmüş hesab olunurdular. Onların "nəşi" tabutlara yerləşdirilərək geriyə - əsgər ailələrinə göndərilirdi. Əslində, tabutlara narkotik maddələr doldurulurdu. Yerlərdə isə bu işlə məşğul olan müəyyən adamlar gecənin bir vədəsində məzarı açır, narkotikanı götürür, onun yerinə daş-torpaq dolduraraq tabut yenidən qəbrə qoyulurdu. Beləliklə, meyit alverçiləri narkotik alverdən milyonlar qazanırdılar. Döyüşlərin birində əsir düşmüş Vüqarın tabutu da valideynlərinə bu qayda ilə çatdırılmışdı. Əslində isə Vüqarın bəxti gətirmiş, ölümdən yaxa qurtara bilmişdi. Əfqanlar əsir düşən Sovet əsgərlərini özlərinə işləməyə məcbur etməyə cəhd edirdilər. Xüsusilə, təklifi qəbul etməyən qeyri-müsəlmanlara - "kafirlərə" daha amansız idilər. "Vətənə" - Sovetlərə sədaqətlə xidmət edəcəyi barədə əsgəri and içmiş Vüqara da əfqanlarla işləmək təklif olunur. Vüqar təklifi rədd edir və bir müsəlman kimi ölümqabağı "kəlmeyi-şəhadətini" dilə gətirir. Bundan sonra onun müsəlman olduğu bilinir və ölümdən azad olunur. Dini yaxınlığın hesabına əsir kimi satılmaq "imtiyazı" əldə edir. Tale onu narkotika baronu Zülfüqar Kərimiyə rast gətirir. Quldar fiziki cəhətdən sağlam olan bu əsir-qulu pul ilə alır.***

Kəriminin xaricdə - Moskvada təhsil almış yeganə qız övladı Fatimə fabrikin idarəedicisidir. O, zahiri gözəlliyi və dünyagörüşü ilə də diqqəti cəlb edir. Atasını inandırır ki, narkotika əvəzinə heyvandarlıq və meyvəçiliklə məşğul olsa, daha üstün mövqe qazanmış olar.

Zülfüqar Kərimi Vüqarı öz təsərrüfatında işlətmək qərarına gəldiyi üçün satın alır. Bundan sonra Vüqarın həyatından ölüm təhlükəsi uzaqlaşır, taleyi başqa səmtdən üzünə gülməyə başlayır. Ağasının qızı Fatimə xanım ona vurulur. Aralarında maraqlı görüşlər, söhbətlər başlayır. Fatimə Vüqarı sevdiyini ona elan edir və deyir ki, bu təklifə "hə" desə, bundan sonra o, əsir, nökər deyil, ağa olacaqdır. Olur da. Onlar Zülfüqar Kəriminin (onuin rəhmətlik arvadı Azərbaycan türkü olmuşdur) xeyir-duası ilə ailə qururlar. Vüqar əfqan dilini öyrənir, fabriki idarə etməkdə Fatimənin ən yaxın köməkçisi olur.

Romanda getdikcə siyasi ab-hava azalır. Onun yerini müxtəlif qadınlarla bağlı sevgi macəraları tutur. Hər macəranın təsvirindən, təhlilindən vaz keçərək, bunun başvermə səbəblərini önə çəkməyə ehtiyac duyulur. Ard-arda, müxtəlif ölkələrdə rastlaşdığı qadınların Vüqara vurulmasında onun yaraşıqlı kişi görkəmi, fiziki sağlamlığı və ehtiraslı cinsəl qabiliyyəti həlledici rol oynayır. O, çoxsaylı arvadlardan çoxsaylı uşaqların atası olur. Həm də qayığkeş atası. Bu Donjuanlıq, ya Balaşlıqdırmı? Cavab vermək çətindir. Bu Qərbli-Şərqli obrazlar zamanında müəllifləri tərəfindən ifşa hədəfinə çevrilmişdir. Vüqar isə başqa cür düşünür: "Bu barədə çox fikirləşib baş yormağa dəyməz. Daha mənimki ondan keçib. Taleyimin dəryada üzən sahibsiz gəmisinin küləyin ümidinə qalaraq hansı sahilə üzməsinin mənim üçün fərqi yoxdur". Onu bu mövqeyinə görə suçlamaq da olar. Müəllif, ümumiyyətlə, müsbət yönlü qəhrəman obrazına qınaq olaraq "təzadlı adam" deməklə kifayətlənir.

Vüqar Fatimənin razılığı və köməkliyi ilə Vətənə - Azərbaycana dönəndən sonra könüllü olaraq işğalçı ermənilərə qarşı Birinci Qarabağ müharibəsində iştirak edir. Burada cərəyan edən hadisələr tez yekunlaşır. Bizcə, İmam Cəmilli vətən müharibəsinin iştirakçısı kimi ayrıca bir roman yazmalıdır.

Romanın dili rəvan və axıcıdır. Obrazlar fikirlərini öz dil leksikonlarına uyğun çatdırırlar. Müəllif hərdən də Cek Londonun abzas tanımayan yazıçı qəhrəmanı Martin İden yolu gedir. Belə ki, müəllif diqqətsizlik edərək dialoqla təhkiyənin sərhədlərini pozur. Bu da sürətli qavrayışı ləngidir.

Əsərin sonunda Vüqar yenidən Əfqanıstana qayıdır. Macəra haradan başlayırsa, orada da sona yetir.

**Ədəbiyyatımızda M.S.Ordubadi ilə başlayan macəra janrı (indi onun dedektiv qolu daha çox vüsət alıb. Sonradan Əlibala Hacızadə ilə uğurla davam etdirilib. Əminik ki, İmam Cəmillinin yeni yazdığı "Təzadlı dünyanın təzadlı adamı" romanı oxucu yaddaşında bu sahədəki uğurları təzələyən bir əsər kimi qalacaqdır.**